# Milli neft strategiyasında yeni önəmli hədəf

## *AÇG-nin sərbəst təbii qaz ehtiyatları işə salınır*

**"Əsrin müqaviləsi"nin 30-cu ildönümü Azərbaycanın neft strategiyası üçün bir sıra əlamətdar hadisələrlə yadda qalıb. Sentyabrın 20-də Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə ölkəmizdə fəaliyyət göstərən hasilatın pay bölgüsü sazişinin xarici tərəfdaşları arasında yeni neft-qaz layihələri ilə bağlı sənədlər imzalanıb.**



ARDNŞ, BP, MOL, INPEX, Equinor, ExxonMobil, TPAO, ITOCHU və ONGC Videsh şirkətlərinin iştirakı ilə Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Azəri", "Çıraq" yataqları və Günəşli yatağının dərinsulu hissəsi (AÇG) üzrə mövcud hasilatın pay bölgüsü sazişinə yeni bir əlavəyə imza atılıb. Bu əlavədə mövcud hasilatın pay bölgüsü sazişinə AÇG yatağının sərbəst təbii qaz ehtiyatlarının kəşfiyyatı, qiymətləndirilməsi, işlənməsi və hasilatı istiqamətində irəliləmək imkanı verən düzəlişlər edilib. Tərəflərin gəldiyi qənaətə əsasən, AÇG yatağının sərbəst təbii qaz ehtiyatları 4 trilyon kub futadək qiymətləndirilir.

Yeni qaz sazişi sentyabrın 20-də Bakıda, "Gülüstan" sarayında Neftçilər Günü və AÇG üzrə hasilatın pay bölgüsü sazişinin imzalanmasının 30 illiyinə həsr olunmuş tədbirdə təntənə ilə elan olunub. Tədbirdə SOCAR-ın prezidenti Rövşən Nəcəf, BP-nin hasilat və əməliyyatlar üzrə icraçı vitse-prezidenti Qordon Birrel, ABƏŞ-in prezidenti Qəri Counz və AÇG-nin tərəfdaş şirkətlərinin yüksək səviyyəli rəhbərləri iştirak ediblər.

*(ardı 7-ci səhifədə)*

# Milli neft strategiyasında yeni önəmli hədəf



**(əvvəli 1-ci səhifədə)**

Qeyd edək ki, sənəd 2049-cu ilədək, AÇG üzrə mövcud hasilatın pay bölgüsü sazişinin müddətinin sonunadək qüvvədə olacaq. Növbəti 25 il ərzində sərbəst təbii qaz ehtiyatlarının kəşfiyyatı və qiymətləndirilməsindən asılı olaraq "Azəri-Çıraq-Günəşli" yataqlar blokunda əlavə işlərin görülməsinə milyardlarla dollar sərmayə qoyulması gözlənilir. Yeri gəlmişkən, tərəfdaşların sərbəst təbii qaz layihəsində iştirak payları AÇG üzrə mövcud hasilatın pay bölgüsü sazişində olduğu kimi müəyyənləşdirilib: (30,37 faiz), SOCAR (25 faiz), MOL (9,57 faiz), INPEX (9,31 faiz), Equinor (7,27 faiz), ExxonMobil (6,79 faiz), TPAO (5,73 faiz), ITOCHU (3,65 faiz), ONGC Videsh (2,31 faiz).

İmzalanma mərasimində SOCAR-ın prezidenti Rövşən Nəcəf çıxış edərək yeni qaz sazişinin imzalanmasını Azərbaycanın enerji sektoru üçün əlamətdar hadisə kimi dəyərləndirib: "Ümummilli lider Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə imzalanmış "Əsrin müqaviləsi"nin bu əlamətdar ildönümündə yeni qaz sazişinin imzalanması SOCAR üçün yeni strateji mərhələdir. Azərbaycan qlobal enerji bazarlarında etibarlı tərəfdaş kimi enerji ehtiyatlarının daha da şaxələndirilməsi istiqamətində səylərini davam etdirir. Bu layihə tərəfdaşlarımızın enerji təhlükəsizliyinə töhfə verməklə yanaşı, Azərbaycanın Avropanın etibarlı enerji təchizatçısı kimi mövqeyini daha da gücləndirəcək".

BP-nin hasilat və əməliyyatlar üzrə icraçı vitse-prezidenti Qordon Birrel sərbəst təbii qaz ehtiyatları layihəsinə başlamaqdan məmnunluğunu ifadə edərək deyib: "Biz AÇG-nin sərbəst qaz ehtiyatlarının işlənməsində böyük potensial görürük. Bu gün AÇG üçün, həqiqətən, tarixi bir gündür. Məhz öz 30 illiyində AÇG-nin möhtəşəm neft uğurları ilə yanaşı, təbii qaz layihəsi ilə yeni yola çıxması çox əlamətdardır".

Son 30 ildə Azərbaycanda baş vermiş nəhəng dəyişikliklərin ölkəni dünyanın mühüm enerji təchizatçılarından birinə çevirmiş AÇG ilə bağlı olduğunu vurğulayan icraçı direktor bildirib ki, bu gün imzalanmış müqavilə ilkin hasilatın pay bölgüsü sazişi qədər əhəmiyyətlidir. Onun sözlərinə görə, yeni saziş AÇG-nin tarixində ilk dəfə kommersiya qazının ixracına imkan verməklə bu əfsanəvi yatağın iqtisadi dəyərini daha da yüksəldəcək və Azərbaycanın Avropaya enerji təchizatını artırmaq planlarını dəstəkləyəcək.

BP-Azərbaycan şirkətindən verilən məlumata görə, sərbəst təbii qaz layları hazırda hasilatda olan neft laylarının altında və üstündə olan çoxsaylı geoloji formasiyalardan ibarətdir. Bunlar isə mövcud AÇG hasilatın pay bölgüsü sazişinə əvvəldən daxil edilməyib. 2022-ci ildə AÇG tərəfdaşları və SOCAR qaz təzyiqinə dair məlumatların toplanması üçün sərbəst təbii qaz laylarına bir qiymətləndirmə quyusunun qazılması barədə razılığa gəliblər. 2023-cü ildə tamamlanmış qiymətləndirmə quyusundan əldə edilən məlumatların təfsiri gözlənilən təzyiq aralığında 4 trilyon kub futa qədər əhəmiyyətli təbii qaz ehtiyatlarının olduğunu təsdiqləyib.

Şirkətin açıqlamasında o da bildirilir ki, yeni əlavəyə uyğun olaraq SOCAR və AÇG tərəfdaşları hazırda sərbəst təbii qaz laylarının işlənməsi üçün növbəti fəaliyyətləri planlaşdırırlar. Bu fəaliyyətlər çərçivəsində hazırda iki prioritet laydan qaz hasil etmək məqsədilə ilkin quyu qazılır. Həmin quyu hasilat vasitəsilə qiymətləndirmə aparmağa imkan verəcək ki, bunun əsasında da gələcək işlənmə planlarını qurmaq mümkün olacaq. Quyu mövcud "Qərbi Çıraq" platformasından qazılır və ilk qaz hasilatına 2025-ci ildə başlanılacağı gözlənilir. Yeni sazişdə ilkin quyudan hasil ediləcək bütün qazın alıcısının SOCAR olacağı barədə də razılıq əldə edilib.

Bununla yanaşı, SOCAR və BP Xəzər dənizinin Azərbaycan sektorunda iki hasilat və kəşfiyyat bloku üzrə sazişlərə qoşulmaq niyyətini açıqlayan anlaşma memorandumu imzalayıblar.

Qeyd edək ki, birinci blok Bakıdan 120 kilometr şərqdə, "Günəşli" yatağından 20-25 kilometr məsafədə, suyun 150–200 metr dərinliyində yerləşən "Qarabağ" neft yatağıdır. Məlum olduğu kimi sözügedən yatağın işlənməsi üzrə 2018-ci ildə imzalanmış və Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən ratifikasiya olunmuş mövcud risk xidməti sazişi mövcuddur.

İkinci blok isə Bakıdan 90–110 kilometr şimal-şərqdə, suyun 80–180 metr dərinliklərində yerləşən Əşrəfi – Dan Ulduzu – Aypara sahəsidir. Bu sahə bir sıra mövcud kəşf olunmuş və perspektiv strukturları əhatə edir. Adı çəkilən sahəyə aid kəşfiyyat, işlənmə və hasilatın pay bölgüsü üzrə saziş 2018-ci ildə imzalanıb və Milli Məclis tərəfindən ratifikasiya olunub. Hazırda SOCAR hər iki sazişdə 100 faiz iştirak payına malikdir.

SOCAR və BP-nin razılaşdırdıqları digər sənəd isə enerji təchizatı təhlükəsizliyinin artırılması məqsədilə beynəlxalq neft və qaz apstrim (kəşfiyyat və hasilat) layihələrində potensial əməkdaşlıq imkanlarını araşdırmaq niyyətlərinin dəstəklənməsini nəzərdə tutur. Bununla bağlı imzalanmış memorandum çərçivəsində şirkətlər beynəlxalq səviyyədə karbohidrogenlərin kəşfiyyatı və hasilatı sahəsində sinerji potensialını və bir sıra yeni investisiya imkanlarını birgə qiymətləndirəcəklər.

Memorandum, həmçinin bu iki şirkətin dünyaya etibarlı və əlçatan enerji təchizatını təmin etmək imkanlarının qiymətləndirilməsində öz təcrübə və biliklərini bölüşmək niyyətini əks etdirir.